# Pərdə bağlandı

### Yeni mövsümdə görüşənədək



Azərbaycan Dövlət Musiqili Teatrı mövsümü iyulun 12-də başa vurub. 105-ci mövsümün yekunuyla bağlı tədbir keçirilib. Teatrın direktoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar incəsənət xadimi Əliqismət Lalayev tədbirdə hesabat xarakterli çıxış edib:

"Yekunlaşdırdığımız mövsüm boyu bir çox uğurlara imza atdıq. Bir sıra tədbirlər keçirdik, yeni tamaşalar təhvil verdik. Xüsusilə I Avropa Oyunları zamanı ölkəmizə gəlmiş qonaqlara göstərdiyimiz xidmətlə fərqlənməyi bacardıq. Hər zaman olduğu kimi bu ildə teatrımızla tamaşaçılar arasında mövcud olan həmrəyliyi qoruyub saxlamaqla yanaşı, bir qədər də inkişaf etdirdik. Sentyabrın 10-da 106-cı teatr mövsümünə start verəcəyik. Artıq biz indidən həmin açılış mərasiminə hazırlaşmağa başlamışıq. Bir çox yeni planlarımız, ideyalarımız var. İnanırıq ki, 106-cı mövsümdə yeniliklərimizlə, sürprizlərimizlə tamaşaçılarımızı sevindirə biləcəyik".

Sonra mövsümün son tamaşası - dahi Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" komediyası oynanılıb. Qeyd edək ki, tamaşada Məşədi İbad obrazını oynayan Əməkdar artist Şövqü Hüseynov bu il Mədəniyyət və Turizm Nazirliyinin "Zirvə" mükafatına layiq görülüb.

Tamaşanın quruluşçu-rejissoru Xalq artisti, "Şöhrət" ordenli, Cənnət Səlimovadır. Rolları Xalq artisti, "Şöhrət" ordenli Afaq Bəşirqızı, Əməkdar artistlər Şövqi Hüseynov, Əkbər Əlizadə, Ələkbər Əliyev, Səidə Şərifəliyeva, Novruz Əliyev, aktyorlar Amil Məmmədov, Əzizağa Əzizov, Nadir Xasıyev, Hüseyn Əlili və başqaları ifa ediblər.

**Turan İsmayılzadə**